(Əvvəli 4-cü səhifədə).

# Yaşayan bir “şəhid” ömrü

vəzifələrində xidmət etmişdir. Halhazırda N saylı hərbi hissənin 1-ci idarəsinin 2-ci xüsusi təyinatlı kəşfiyyat şöbəsinin baş zabiti vəzifəsində xidmət edir.

Ailəlidir, 2 övladı var.

**Bir həyat məktəbi**

Təbriz kəşfiyyat zabiti, hərbi kəşfiyyat məmuru idi. 2020-ci ilin iyul hadisələri zamanı aldığı ağır yaraların izləri onda hərtərəfli dərin iz buraxmışdı. Bu hadisə polkovnik-leytenant Təbrizin sağlamlığına ciddi ziyan vurduğu, həyatını alt-üst etdiyi kimi, mənəvi tərəfdən də ona ciddi təsir etmişdi.

Məlum döyüşlərin xaosu, yanında faciəli şəkildə həyatını itirən və qəhrəmancasına şəhid olan dostlarının son anda yaşadıqları onun psixologiyasına ağır təsir etmişdi. Ölüb-yenidən dirilmişdi, Təbriz. Lakin o son döyüş anı ağır yaralanıb huşunu itirənədək, sonradan özünə gəlib ətrafı necə seyr etmişdisə gördükləri hər bir detalı ilə yaddaşına həkk olunmuşdu.

O, 3-cü korpusda xidmət edərkən korpusun kəşfiyyat şöbəsinin rəis müavini idi. 12-14 iyul hadisələri haqqında maraqlı faktlarla söhbətə başladı. O hadisələri hərtərəfli, aydın şərh etdi. Söhbət etdikcə onun üzünə diqqətlə baxmaq mümkün deyildi. Çünki o, bu acıları təkrar yaşayırdı. Onu qəhər boğduqca, göz yaşlarını boğmağa çalışsa da, büruzə verirdi. Aldığı yara izləri bu söhbət zamanı üz cizgilərində apaydın gərginliyini hiss etdirirdi. O, Polad Həşimov və son hadisə ilə əlaqədar film çəkilişindən gəldiyini qeyd etmişdi. Bəlkə də görüşümüz zamanı onun gərginliyi buna görə daha çox idi. Axı özü də qeyd etdi ki, o yerləri - döyüş gedən ərazini görən kimi o hadisələrin stress və həyəcanını yaşadım və orada danışa bilmədim...

Mənimlə söhbət zamanı da ona təkrar o hadisələri xatırlatmaqla hansı acıları yaşadığını bilirdim. Ancaq məcbur idim. Axı tək şahid idi. 12 şəhidin və 44 günlük vətən müharibəsinin başlanma səbəbinin canlı şahidi.

Başqa şahidlərdən, şahidlikdən fərqlənirdi o! Çünki Təbriz şəhidliyi yaşamış və görmüş olduğu üçün “canlı şəhid” idi... Bütün sağlamlığını itirmişdi, mənəvi və psixoloji sarsıntı keçirmişdi. Amma buna rəğmən 44 günlük müharibədə, bu gün də aldığı hərtərəfli yaralarla “vuruşa-vuruşa” daima iş başındadır.

Hazırda hərbi qospitalda olsa belə yenə də o əqidə, o vicdan, o insanlıq, peşəsinə, işinə sədaqət onunladır.

Təbrizlə söhbət zamanı öyrəndik ki, düşmən tərəf Tovuz və Tovuzun Ağdam kəndi istiqamətində törətdikləri bu hadisəni əvvəlcədən planlaşdırmışdı...

Tovuzun Ağdam kəndindən keçən sərhəd xəttindəki Mübariz postu ilə Babadağ postu arasındakı baş posta düşmən öz silah və döyüş sursatlarını yerləşdirmişdi. Bu post “Mübariz” postundan 1150 metr, Babadağ postundan isə 800 metr aralı məsafədə idi. Keçmişdə hər iki postun bu ərazini görüb nəzarət etdiyi üçün bu post bir növ ləğv edilmişdi. Bu bölgədə düşmən postları var idi; “İt yuvaları-1,2,3” postları. Düşmən “İt yuvası-3” - postundan bura tunel qazmış, həmçinin qazdıqları tunelin torpağını arxaya dağıtmışdılar. Onların məqsədi bu postdan yaxınlıqdakı Tovuzu və Tovuzun Ağdam kəndini, oradan keçən yolu müşahidə etmək və fürsət düşən kimi ona təsir etmək istəyi idi. Onun dediyinə görə, düşmənin taktiki niyyət və məqsədləri böyük idi. Beynəlxalq magistral yollar, neft və təbii qaz boru kəmərləri, Gürcüstan və Türkiyəyə gedən dəmir yolları və.s buradan keçirdi. Bura həm də Türkiyə ilə Azərbaycan arasında ikitərəfli strateji bağın keçdiyi Kür çökəkliyi idi... Bir sözlə, bura son dərəcə əhəmiyyətli strateji hadisələr üçün başlanğıc nöqtəsi idi.



Erməni əsgərləri hiyləgərliklə bu posta daxil olurlar. Babadağ postuna gedən yol Ağdam kəndindən sərhədə doğru gəlir, bu boş posta yaxınlaşdıqdan sonra sola dönüb Babadağ postuna gedir. Bölgədən məsul olan 812-ci briqadanın komandir müavini bu yoldan Babadağ postuna gedərkən bu boş post-da hərəkət görür. Ətrafda gəzən silahlı adamlar çadır qurublar, mövqe tuturlar.

Bunları görən briqada komandirinin müavini maşından düşüb nə baş verdiyini öyrənmək üçün sərbəst şəkildə o istiqamətə gedir. O, düşünürdü ki, 27 ildir burada o qədər də nəzər-diqqəti cəlb edən hadisə baş verməmişdir.

Onların yaxınlaşdıqlarını görən erməni əsgərləri atəş açırlar. Briqada komandirinin müavini ilə birlikdə olan çavuş Vüqar Sadıqov 3-4 güllə yarası alır, şəhid olur. Briqada komandirinin müavini və sürücü çətinliklə “Mübariz” postuna gəlir və briqada komandirinə xəbər verirlər. Sonra isə qərargah rəisi Polad Həşimova xəbər verilir. Bu xəbəri alan zaman Polad Həşimov Şəmkirdəki korpus qərargahında idi. Polad Həşimov dərhal korpusun növbətçisini çağırır və ona tapşırıq verir: -“Dərhal kəşfiyyat şöbəsinin rəisi Zeynalov (polkovnik), onun müavini T.Kərimov (polkovnik-leytenant), artilleriya rəisi İ.Mirzəyev, polkovnik Orucov, hava hücumundan müdafiə şöbəsinin müavini, mayor İ.İsayev korpus qərargahına toplaşsınlar”. Düşmən daha da azğınlaşırdı və hərtərəfli atəş edirdi. Onlar yalnız bu postların ətrafına, postlara deyil, həmin ünvanda dinc əhaliyə də atəş açırdılar. Onların atəş mövqeləri təpələrin arxasında idi. Necə belə dəqiq vurduqları bizi maraqlandırırdı... Bu döyüşdə 6 əsgər yaralandı, leytenant Rəşad Mahmudov şəhid oldu. Düşmənin minaatan mərmisi onu arxadan tutmuşdu.

Biz düşmən həmlələrini bacarıqla dəf edir və onlara layiqli cavabı verirdik...

O günü də acı ilə xatırlayıram. Onun yanında şəxsi telefonu yox idi. Yalnız hərbi radio-telefon var idi. Mövcud telefon nömrəsini yalnız anası və həyat yoldaşı bilirdi. Yalnız onlarla danışardı. O əlini qəfil cibinin üzərinə qoydu, təəssüflənərək dedi: “-Telefon otaqda qalıb, kaş gətirsəydim.”

Bunu eşidən kimi dərhal telefonumu cibimdən çıxarıb qarşısına qoydum: “Buyurun, zəng edin”, - dedim və çıxdım. Amma bilirdim ki, artıq saat axşam 11-i keçdiyi üçün zəng etməyəcək. O, məni səslədi və dedi: “-İndi gecdir, narahat olma, səhər zəng edərəm.”

Bu anda onun hərbi telefonu çaldı, ona zəng gəldi. O bir qədər danışdıqdan sonra mənə tərəf döndü və dedi: “-Səhərə qədər mövqelərinizi möhkəmləndirin, səhər saat 5-də düşməni atəşlə vurmağa başlayacağıq.”

Danışıqdan hiss etdim ki, korpus komandiri onu Tovuz briqadasında görüşə çağırır. O, polkovnik İlqar Mirzəyevlə birgə getdi. Təxminən 2-2,5 saat sonra qayıtdılar. Gecə saat 02:00 olardı... Polad Həşimov maşınının arxasını ərzaqla doldurmuşdu. Bunlar bizim əsgərlər üçün idi... Bu anlarda belə əsgərlərini düşünmüşdü...

Gecə saat 4:00 radələrində düşmən mövqelərini izlərkən düşmənlərdə qəribə hərəkərlər olduğunu gördük... Hər yerə atəş açır, qumbara atırdılar.

Erməni özbaşına döyüşləri bir müddət davam etdi, sonra tək-tək səs eşidildi və sonra tamamilə dayandı. Bu ara daha bir maraqlı hadisə baş verdi. Düşmənin işğal etdiyi “Aralıq post”da bir-birinin ardınca minaatan partlayışları baş verdi. Biz atmırdıq, heç kim bizdən atmırdı.

Düşmən nədənsə, öz əsgərlərinə “İt yuvaları”ndan minaatan atırdı. Düşmən əvvəlcə özü ilə vuruşdu, sonra isə öz əsgərlərini güllələdi. Düşünürəm ki, gördüyümüz müharibə xaosu idi.

Sonra Polad paşa arxa mövqedən getdi. Çıxarkən dedi: “Düşmənin top və minaatan atəşləri başlamırsa, ətrafınıza düşmürsə deməli təhlükə var!

Silahlarınızı indi yerləşdirin. İşi olmayan hər kəs buradan getməli, hər kəs ya sığınacağına, ya da silah mövqeyinə yollanmalıdır”. Bir az sonra rəsmi şəxslərdən biri bölgəyə gəldi. Saat 06:00 olardı. Polad paşa vəziyyəti ona bildirdi. Düşmənin özü-özünü necə vurduğunu müzakirə etdilər. Rəsmi yoldaş Polad paşaya dedi ki, “-Polad, burada dayanmağına ehtiyac yoxdur, mənimlə aşağı en. Briqada komandiri artıq buradadır.” Onlar maşınlara tərəf getdilər. Polad paşa ona: “Mən də ardınızca gəlirəm!” - dedi və onu salamlayaraq yola saldı. Sonra isə maşını onun arxasınca göndərdi... Biz də müşahidəçi kimi baxırdıq. Maşın boş idi... Təəccübləndik.

Biz səhər saat 6-dan sonra əmr aldıq: “Başlamaq!” Atışma normal gedirdi. Əsl müharibə, döyüş meydanı. Düşmənə də layiqincə cavab verilirdi.

Bu anda ilk güllə Polad paşaya gəldi. Düşmən snayperinin atdığı güllə təkərin başından 20-30 sm yuxarıya dəydi və oradan yuxarıya sıçradı. Mən Polad paşaya: “- Komandir, çıxın buradan, bura baxacağıq,”-dedim. O da kəskin şəkildə mənə tərəf döndü və əsəbi və sərt bir baxışla baxdı, ancaq heç nə demədi. Üzünü başqa tərəfə çevirib dedi; “-Yaxşı, Təbriz çıxacağam!”

Nə düşündüsə, ayağa qalxdı. Qalxmamışdan əvvəl və sol əli dizinin üstündə, sağ əlində durbin dedi: “-Bəli, çox uzun müddətdir buradayıq, buradan çıxaq”.

Sonra mayor Novruzova: “-Barabanda neçə güllə qaldı?”- deyə soruşdu.

O dedi: “-Bir xətt qaldı.” Sonra Polad paşa mənə zəng etdi: “-Təbriz!”

Qarşımda xəritə var idi. Ayağa qalxmağa çalışdım. Bu arada mayor Novruzovun AGS-17-si atəş açırdı. Məhz bu anda Polad Həşimovun son sözlərini eşitdim:

“-NSVP mövqe!” Bu onun son sözləri idi... Bu “Pulemyot mövqeləri” demək idi. Düşünürəm ki, “avtomat işə düşsün və atəş açsın”- deyəcəkdi, amma sözünü bitirə bilmədi... Bu anda bir uğultu eşitdim. Partlayışı dərhal sonra gördüm. Güllənin düşüb partladığı yer məndən 3 metr, Poladdan isə 1,5-2 m aralı idi...

Özümü partlayışın güclü dalğası ilə arxamdakı mövqe divarına çırpıldığımı və sol tərəfimdə üzü aşağı düşdüyümü xatırlayıram.

Mən gözüyumulu kimi olsam da çox şeyi xatırlayıram. Yaxınlığımdakı dostlarımın hansı şəkildə şəhid olmaları gözlərimin önündədir. Ancaq Polad paşanı axtarsam da tapa bilmədim baxışlarımla. Düşündüm ki, bəlkə də öz sığınacağına getmişdir. Bu bir yaralının düşüncəsi idi - həm də ani olaraq. Bu fikrə inanmasam da sevindim ki sağdır. Ancaq Polad paşanın neytral zonaya düşərək faciəli şəkildə şəhid olduğunu sonra öyrəndim... Partlayışda 6 nəfər idik... 5-i şəhid, mənsə “Canlı şəhid!”.

**Bibixanım İSAYEVA.**

# Bir ordu deməkdir bəzən bir ürək

**Düzlüklərə köklənmək**

Yaşadığımız həyat özü ədəbi baxımdan bir dastandır, bitməyən və sonu olmayan bir dastan. Bu dastanın “qolları” insan ömürləri. Bu ömürləri bədiiləşdirib cildlərlə yığsaq həyat yeksənək olardı. Axı bəzən oxşar ömürlülər, talelər də olur. Bax, ona görə də bu insan ömürlərini fərqləndirən zaman və həqiqətlər var. Yaddaşımızın hökmü ilə o həqiqətlərin zamanda iz salanlarını tarixləşdirərək yaşatmaq fərmanı veririk.

Düzlük-həqiqət donu insan taleyində bilirsiniz nə vaxt əsl nümunəyə dönür?! Fəlsəfi baxımdan həyata baxanda. Diqqətinə yetsək görərik ki, səhər gecikməz, qaranlıq və işıq seli həmişə öz vaxtında gələr cahana. Gələsi anını da, qalacaq zamanını da atlatmaz. Və bunu dərk edən insanlar da həyata baxışını bu düzlərlə köklər. Həyat onu düzlüklərlə kökləyən insanları seçmək, tanıdıqca tanıtmaq lazım ki, başqalarının vicdanlarını kökləyə biləsən və həyatı vicdanların diktəsi ilə yaşamağa təcrid edəsən.

O insanı- Rəsul Qurban oğlu Babayevi məhz bu baxımdan seçdik. Daha doğrusu, o yaşadığı həyat tərzi ilə seçilənlərdən olduğu üçün insanlara bir daha tanıtmaq istədik.



**Haraya gedəcəyini bilməyən gəmiyə rüzgar belə kömək edə bilməz**

Rəsul Qurban oğlu Babayev 1977-ci ildə Qəbələ rayonunun Həmzəli kəndində anadan olmuşdur. 1985-1996-cı illərdə Həmzəlli kənd orta məktəbini bitirmişdir. 1996-2002-ci illərdə isə Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi fakültəsində təhsil almışdır. 2 il Qəbələ rayon mərkəzi xəstəxanasında internatura kursu keçmişdir. 2003-2005-ci illərdə Naxçıvanda “N” saylı hərbi hissədə tabor tibb məntəqə rəisi vəzifəsində xidmət etmişdir. 2006-2014-cü illərdə Qəbələ futbol klubu, Yengicə istisu sanatoriyası, Uşaq Gənclər idman məktəbi, “Sosial xidmətlər təşəbbüsü” qeyri-hökümət təşkilatı kimi müəssisələrdə həkim vəzifəsində çalışmışdır. 2014-cü ildən etibarən Qəbələ rayon mərkəzi xəstəxanasında təcili tibbi yardım bölməsində çağırış həkimi vəzifəsində çalışır.

Rəsul həkim öz həyat yolunu arzularının yolu ilə davam edən bir insandır. Amalı hələ uşaq yaşlarından insanlara xidmət etmək, onlara sağlam həyat bəxş etmək olmuşdur.

**İnsan olaraq qalmaq**

Rəsul həkim yurdumuzun dilbər guşələrinin yağı tapdağında əzilməsini, yağmalanmasını, öz isti ocağından məcburən köçkün düşən eloğlularının çəkdiyi

(Ardı 7-ci səhifədə).